*AMEA Filologiya və sənətşünaslıq, 2025, № 1* *ISSN 2663-4368*
*Səhifə: 6-14* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2025.1.6*

# Azərbaycanda düşünən heykəltəraşlıq məktəbi və heykəltəraşlıqda lirizm

**İsa Həbibbəyli**
AMEA-nın prezidenti, akademik
E-mail: isa.habibbeyli@science.az

**Annotasiya:** Məqalədə Azərbaycan təsviri sənətində düşünən heykəltəraşlıq məktəbinin təşəkkülü və bu sənət istiqamətində lirizmin fəlsəfi-estetik kontekstində təzahürü sistemli şəkildə təhlil olunur. Mövzu Xalq rəssamı, akademik Ömər Eldarovun çoxşaxəli yaradıcılığı əsasında ideya ilə formanın, reallıqla poetik təsvirin, bədii simvollarla fəlsəfi məzmunun sintezində reallaşan yeni ifadə modelinin nəzəri araşdırılması baxımından təqdim edilir.
Heykəltəraşın monumental, memorial və portret xarakterli kompozisiyalarında tarixilik, milli kimlik, insan və zaman münasibətləri kimi fundamental anlayışlar bədii forma vasitəsilə mənalandırılır. Obrazların mimikası, baxış istiqaməti və kompozisiya daxilindəki hərəkət dinamikası vasitəsilə düşüncə və hiss qatlarının vizual şəkildə ifadəsi təmin edilir. Bu xüsusiyyətlər heykəltəraşın təkcə texniki ustalığını deyil, həm də fəlsəfi ümumiləşdirmə və emosiya intensivliyini estetik bir çərçivədə təqdim etmək bacarığını nümayiş etdirir.
Ömər Eldarovun yaradıcılığında sərt realizmlə romantik lirizmin sintezi yeni estetik kod yaradır. Bu kod vasitəsilə bədii ifadə yalnız zahiri forma ilə deyil, eyni zamanda dərin mənəvi və mədəni məzmunla yüklənmiş təfəkkür strukturuna çevrilir. Əsərlərində insan obrazı həm ictimai-tarixi kontekstdə, həm də fərdi-mənəvi dəyərləndirmə səviyyəsində təqdim edilir ki, bu da düşünən heykəl modelinin əsas ideya bazasını təşkil edir.
Məqalədə, eyni zamanda, Ömər Eldarovun Azərbaycan akademik heykəltəraşlıq məktəbinin yaradılmasındakı rolu, sənət pedaqoqu kimi fəaliyyəti, ictimai-mədəni təsiri və beynəlxalq nüfuzu da geniş şəkildə nəzərdən keçirilir. Yekunda onun yaradıcılığı təkcə sənət hadisəsi deyil, həm də elmi-nəzəri və mədəni-fəlsəfi hadisə kimi dəyərləndirilir.
**Açar sözlər:** Ömər Eldarov, düşünən heykəl, lirizm, monumental heykəltəraşlıq, sərt realizm, vizual təfəkkür, akademik sənət məktəbi

**Məqalə tarixçəsi:** göndərilib – 08.05.2025; qəbul edilib – 19.05.2025

# The Thinking Sculpture School in Azerbaijan and Lyricism in Sculpture

**Isa Habibbəyli**
President of ANAS, academician
E-mail: isa.habibbeyli@science.az

**Abstarct:** This article presents a systematic analysis of the formation of the thinking sculpture school in Azerbaijani visual art, along with an exploration of lyricism as a philosophical-aesthetic phenomenon within this context. Grounded in the multifaceted oeuvre of People's Artist and academician Omar Eldarov, the study articulates a model of artistic synthesis – one that integrates ideas with forms, realism with poetic expression, and symbolism with philosophical depth.
Eldarov's monumental, memorial, and portrait compositions reflect essential concepts such as historicity, national identity, and the relationship between individual and time, all conveyed through refined artistic

form. Facial expression, pose, gaze orientation, and internal compositional movement serve as mediums for the visualization of thought and emotion, revealing not only craftsmanship but also the ability to convey profound intellectual meaning through aesthetics.
The fusion of harsh realism and romantic lyricism in Eldarov's work generates a unique artistic code in which visual form becomes a vessel for cultural, existential, and philosophical content. Human representation is interpreted both within a historical-cultural framework and through the lens of individual inner experience, which constitutes a central axis of the thinking sculpture paradigm.
The article also examines Eldarov's foundational role in establishing an academic school of sculpture in Azerbaijan, his pedagogical contributions, social-cultural influence, and international recognition. His creative legacy is assessed not merely as an artistic phenomenon but as a significant event in the cultural, theoretical, and philosophical discourse of Azerbaijani art.
**Keywords:** Omar Eldarov, thinking sculpture, lyricism, monumental art, harsh realism, visual thinking, academic art school

**Article history:** received – 08.05.2025; accepted − 19.05.2025

## Giriş / *Introduction*

Azərbaycan Respublikasının xalq rəssamı, akademik Ömər Eldarov heykəl yaratmaq işinə kompozisiyalı heykəltəraşlıqla başlamış və bu sahə onun bütün fəaliyyəti boyu yaradıcılıqla davam etdirilmişdir. İlya Repin adına Leninqrad Rəssamlıq Akademiyasının tələbəsinin diplom işi kimi yaradılmış "Gənc qvardiyaçılar" qorelyefi (1951) ideoloji istiqamətindən asılı olmayaraq, orijinal portretlər qalereyasıdır. Bu kompozisiya eyni yaşda olan və vahid amala xidmət edən səkkiz nəfər gənc qvardiyaçının bir-birini təkrar etməyən obrazlarının tuncdan tökülmüş təqdimatıdır. Bu, Ömər Eldarovun tunc üzərində canlandırılan portretlər yaratmaq istedadının ilk real təzahürüdür.

Süjetli heykəltəraşlıq baxımından Ömər Eldarovun "İlin dörd fəsli" və "Bacılar" adlı süjetli heykəlləri onun kompozisiyalı heykəltəraşlıq əsərləri sırasında özünəməxsus yer tutur. Belə ki, onun Məhəmməd Füzuli və ya Hüseyn Cavid heykəllərində süjetli detallar əsas heykələ əlavə olunmuş motivlərdən ibarətdir. Lakin görkəmli heykəltəraşın "Azərbaycan diviziyası", "Dəniz neftçiləri", "İlin dörd fəsli" və "Bacılar" kimi heykəlləri isə tam olaraq süjetli heykəltəraşlıq nümunələrdir. "İlin dörd fəsli" heykəl kompozisiyasındakı dörd qadın obrazlarından hər biri fəsillərə uyğun geyimi və ifadəli bədən hərəkətləri ilə həqiqətən də il ərzindəki iqlim dəyişikliklərini real surətdə əks etdirir. Lakin bu, "İlin dörd fəsli" kompozisiyasının ilk baxışda görünən zahiri tərəfidir. Əslində Ömər Eldarov "İlin dörd fəsli" kompozisiyasında insanın təbiətlə əlaqəsini deyil, geniş mənada insan və zaman münasibətlərini mənalandırmışdır. Obrazların hər birinin zahiri və daxili gərginlikləri, əl hərəkətləri, hətta saç düzümü ilə Ömər Eldarov narahat dünyanın obrazını yaratmağa nail ola bilmişdir. Buna görədir ki, Ömər Eldarovun "İlin dörd fəsli" kompozisiyası haqlı olaraq həm də "Zamanın dörd zəngi" də adlandırılır.

Bu cəhətdən heykəltəraş Ömər Eldarovla xalq rəssamı Tahir Salahovun əsərləri ideya-sənətkarlıq, xüsusən də mövzunun bədii həlli baxımından bir-birinə yaxındır. Əslində həmin yaxınlıq bu qüdrətli sənətkarların hər ikisinin sənətdə əsaslandığı əsas prinsipin – sərt realizm yaradıcılıq metodunun daxili məntiqindən irəli gəlmişdir. Sovet hakimiyyəti illərində sosialist realizmi yaradıcılıq metodunun tələb etdiyi nikbin əhvali-ruhiyyənin əksinə olaraq, Tahir Salahov və Ömər Eldarov rəsmlərində, heykəllərində həyatın, insan talelərinin gerçəkliklərini və gərginliklərini böyük məharətlə diqqət mərkəzinə çəkmişlər.

Ömər Eldarovun "Dəniz neftçiləri" heykəltəraşlıq kompozisiyası ilə Tahir Salahovun Xəzər neftçiləri rəsmlər silsiləsi arasında da ideya-sənətkarlıq cəhətdən yaxınlıq müşahidə olunur.

Hər iki görkəmli sənət ustadı bir-birilərini təkrar etmədən öz əsərlərində Xəzər neftçilərinin timsalında həyatını çətin risk altında qoyaraq fədakarlıq nümunəsi göstərən Azərbaycan neftçilərinin gərgin həyat şəraitini, onların çox da firavan olmayan maddi durumunu, fədakarlıqlarını yüksək peşəkarlıqla əks etdirmişlər. Tahir Salahovun qan rəngində olan müştüklə çəkdiyi neftçi obrazının ifadə etdiyi mənanı Ömər Eldarov estakadada siqaretini yandırmaq üçün çətinlik çəkən neftçi surəti vasitəsilə mənalandırmışdır. Tahir Salahov qırmızı müştüklü neftçi rəsmi ilə alt qatda Azərbaycan neftinin sorulub ölkədən aparılması fikrini ifadə etmişdir. Ömər Eldarov isə örtülü şəkildə SSRİ-nin yanacaq ehtiyatını təmin edən Azərbaycanda neftçilərin siqaretlərini yandırmaq üçün alışqan tapmaqda belə çətinlik çəkdiklərini göstərmişdir. Belə məqamlarda Tahir Salahov da, Ömər Eldarov da mövzunun sovet dövlətinin dayağı hesab edilən fəhlə sinfinə həsr edilməsi və qırmızının zəngin ölkədə bolşevizmin rəmzi olaraq qəbul edilməsi faktları ilə senzuranın diqqətindən yayınmağa nail ola bilmişlər.

Yeri gəlmişkən, Ömər Eldarovun böyük fırça ustadı Tahir Salahovun yaradıcılığına verdiyi yüksək qiymət də dahi rəssamın sənət qüdrətinin etiraf edilməsi ilə bərabər, həm də XX əsrdə hər iki görkəmli sənətkarın istinad etdikləri, sovet cəmiyyətində arxa planda qalmış sərt realizm yaradıcılıq metodunun nə qədər fərqli əsərlərin meydana çıxması üçün yaratdığı geniş imkanların dəstəklənməsi kimi səslənir: “Azərbaycan təsviri sənəti tarixində dünya şöhrətli rəssam Tahir Salahovun zəngin yaradıcılığı xüsusi bir mərhələ təşkil edir. Rəngkarlıqda nümayiş etdirdiyi orijinallıq və müasirlik onu bənzərsiz rəssam kimi dünya arenasına çıxarmışdır. Bu mütəfəkkir rəssam nəinki Azərbaycan və Sovet İttifaqı, hətta dünya miqyasında geniş şöhrət qazanmış özünün böyük sənət məktəbini yaratmışdır. O, sovet təsviri sənətində sərt realizm üslubunun banisi sayılırdı… İftixar hissi ilə demək olar ki, onun adı Van Qoq, Pikasso, Klod Mone, Xaçisika Xakusai, Salvador Dali, Zurab Sereteli, Ayvazovski, Repin, Surikov və digər dünya şöhrətli sənətkarlarla yanaşı çəkilir” [6].

Xalq rəssamı Ömər Eldarov Azərbaycan heykəltəraşlıq sənətində sərt realizm yaradıcılıq metodunun banisidir.

***

Xalq rəssamı Ömər Eldarovun yaradıcılığı Azərbaycan monumental heykəltəraşlıq sənətində görkəmli siyasi-tarixi və ədəbi şəxsiyyətlərin özünəməxsus heykəllərini yaratması ilə səciyyələnir. Onun heykəlləri düşünən, mütəfəkkir baxışlarına malik olan heykəllərdir. Məlum olduğu kimi, Azərbaycan heykəltəraşlığında dinamik (əl hərəkəti qabarıq olan), statik (pasport şəkli kimi) və monumental (əzəmətli) obrazlar yaratmaq ənənəsi geniş yer tutur. Milli heykəltəraşlıq sənətində düşünən heykəltəraşlıq üslubunun xüsusi bir istiqamət səviyyəsinə çatdırılması məhz Ömər Eldarovun adı ilə əlaqədardır. Ömər Eldarovun ilk heykəllərindən olan əsərini “Şairə Xurşidbanu Natəvanın portreti” adlandırması (1955) onun müraciət etdiyi obrazı xarakterik portret cizgiləri ilə birlikdə ifadə etmək qayəsinin ifadəsidir. İstedadlı heykəltəraş Xurşidbanu Natəvanın əlindəki qələmi kompozisiyaya daxil etməklə onun şairəlik istedadından gələn lirizmi diqqət mərkəzinə çəkmişdir. Şairənin gözlərində və üzündə rəssam dəqiqliyi ilə çəkilmiş dərin kədər Xan qızının cavan yaşlarında oğlunu itirməsindən doğan hüznü və yaradıcılığındakı nisgil motivlərini mənalandırır. Xurşidbanu Natəvanın heykəlindəki incə gümüş kəmər, ipək yaylıq şairənin bəy-xan nəslinə mənsub olduğunu əyani detallarla əks etdirir.

Ömər Eldarov Azərbaycan heykəltəraşlıq sənətində tişə ilə fırçanın imkanlarını üzvü surətdə birləşdirərək canlı, ifadəli heykəllər yaratmağı bacarmışdır. Bu mənada Ömər Eldarov Azərbaycanda heykəltəraşlıq sənətinin rəssamı funksiyasını yerinə yetirən nadir sənətkarlardan biridir. Məhz tişə ilə həm də fırçanın görə biləcəyi işləri həyata keçirməyi bacarması onun yaratdıqları obrazların təkcə bədən quruluşunu deyil, eyni zamanda, üzündəki cizgiləri, fikri, düşüncəni, kədəri və təbəssümünü də təsvir etməsinə imkan yaratmışdır. Bu isə öz növbəsində Ömər Eldarovun düşünən heykəllər silsiləsi ya-

ratmasına meydan açmışdır. Düşünən və düşündürən heykəllər yaratmaq demək olar ki, Ömər Eldarov sənətinin özünəməxsusluğunu müəyyən etmişdir. Ömər Eldarovun Tacikistanın Düşənbə şəhərində ucaldılmış Sədrəddin Ayninin (1978) və məşhur İbn Sinanın (1980), Hindistanın Comolunqması sayılan, Nobel mükafatı laureatı Robindranat Taqorun (1987), Ankaradakı İhsan Doğramaçının (2001), maestro Niyazinin (2017) Bakı şəhərindəki heykəlləri mütəfəkkir heykəltəraş düşüncəsinin möhtəşəm abidələridir. Ömər Eldarovun Azərbaycan ədəbiyyatının görkəmli yaradıcılarından olan Hüseyn Cavidin Bakı şəhərindəki heykəlində ifadə olunan dərin düşüncə romantik kədərin daşlaşmış məbədinin ifadəsidir. Hüseyn Cavidin əlləri qoynunda çarpazlaşdırılmış şəkildə təqdim olunması filosof sənətkarın həyata, cəmiyyətə dərin baxışlarını mənalandırır. Nəhayət, Hüseyn Cavidin böyük planda təqdim olunmuş əzəmətli heykəlində ədibin başını aşağıya meyllənmiş, nəzərləri məchul bir nöqtəyə dikilmiş vəziyyətdə təsviri də düşünən heykəltəraşlığın səciyyəvi əlamətidir.

Qeyd etmək lazımdır ki, Ömər Eldarovun əksər heykəllərində nəzərləri aşağıya zillənmiş baxış detalı vasitəsilə fikir ifadə etmək səciyyəvi xüsusiyyətlərdən biridir. İlk sənət əsəri olan Xurşidbanu Natəvanın abidəsində, Tokay Məmmədovla birlikdə hazırladıqları Məhəmməd Füzuli heykəlində, dahi Üzeyir Hacıbəylinin Avstriyanın paytaxtı Vyana şəhərində və Bakıda Fəxri Xiyabandakı qəbrüstü abidəsində, hətta Nobel mükafatı laureatı Robendranat Taqorun heykəllərində də Ömər Eldarov obrazın dərin düşüncəsinin diqqət mərkəzinə çəkilməsinə onun aşağıya doğru baxışlarını təsvir etməklə nail olmuşdur. Bütün bunlar göstərir ki, Ömər Eldarovun heykəlləri təkcə ənənəvi postamentdən və şəxsiyyətin əzəmətli görüntüsündən ibarət olmayıb, daha çox fikir, düşüncə, mətləb ifadə edən monumental sənət nümunələridir. Ömər Eldarovun heykəlləri insan düşüncəsinin abidələridir. Ömər Eldarov heykəlin əzəmətini canlandırarkən mahir heykəltəraş, onun fikir və düşüncələrini ifadə edərkən görkəmli elm xadimi, əsl akademikdir. Onun sənətində heykəltəraşlıqla akademik düşüncənin möhkəm üzvi sintezi var. Xalq rəssamı Ömər Eldarovun düşünən və süjetli heykəlləri Azərbaycan akademik heykəltəraşlığının canlı örnəkləridir.

Uzun illər Azərbaycan Rəssamlıq Akademiyasının rektoru olmuş Ömər Eldarov Azərbaycanda akademik heykəltəraşlıq məktəbinin yaradıcısıdır. Ömər Eldarov Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, akademik heykəltəraşlığın fəxridir. Bütün bunlara görə Ömər Eldarov özü də xalq rəssamı fəxri adı ilə akademik elmi rütbəsini eyni ucalıqda daşıyan və yaşadan mütəfəkkir heykəltəraşdır. Dahi heykəltəraşın əksər heykəlləri həm də onun möhtəşəm elmi əsərləridir. Eyni zamanda, Ömər Eldarovun yaratdığı görkəmli elm xadimlərindən akademik Zərifə xanım Əliyeva, akademik Həsən Əliyev, akademik Ziya Bünyadov, professor Lütfizadə, professor Aida İmanquliyevanın memorial abidələri bənzərsiz heykəltəraşlıq nümunələri olmaqla bərabər, həm də akademik elmin böyük yaradıcılarının adlarının əbədiləşdirilməsinə sanballı töhfələridir.

Xalq rəssamı Ömər Eldarov görkəmli dövlət xadimi Heydər Əliyevin möhtəşəm heykəllərini yaratmışdır. Onun təqdimatında Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev qüdrətli dövlət xadimi və parlaq, əzəmətli şəxsiyyət kimi canlandırılır. Ömər Eldarovun müəllifi olduğu Bakı şəhərinin Fəxri Xiyabanındakı Heydər Əliyev abidə-kompleksi Azərbaycan heykəltəraşlığının şah əsəridir. Azərbaycan oftamologiya elminin banisi, akademik Zərifə xanım Əliyevanın heykəlini də Fəxri Xiyabandakı abidə-kompleksinə daxil etməklə Ömər Eldarov heykəltəraşlıq sənətində monimental heykəltəraşlıqla memorial heykəltəraşlığın vəhdətinə nail olmuşdur.

Ömər Eldarovun hələ 25 il bundan əvvəl öz təşəbbüsü ilə heç bir sifariş almadan Azərbaycanda xalq müdrikliyinin rəmzi kimi qəbul edilən Dədə Qorqudun abidəsini hazırlaması onun düşünən heykəltəraşlıq məktəbi yaratmaq istiqamətindəki düşünülmüş addımıdır. Xalq rəssamı, akademik Ömər Eldarov Azərbaycan heykəltəraşlıq sənətinin yaşayan Dədə Qorqududur.

Xalq rəssamı, akademik Ömər Eldarovun özü də sanki Azərbaycan heykəltəraşlıq sənətinin hərəkətdə olan canlı heykəlidir.

***

Xalq rəssamı Ömər Eldarovun heykəltəraşlığında lirizmin və bədii detalların zənginliyinin də özünəməxsus yeri var. Onun demək olar ki, bütün heykəllərində lirika əlamətləri həkk olunmuşdur. Şairə Natəvanın heykəli sanki bütünlüklə şeiriyyətdən yoğrulmuşdur. Ömər Eldarovun Natəvanın qranitdən yoğrulmuş heykəli lirik-romantik romans təəssüratı yaradır. Məhəmməd Füzulinin heykəlinin pyedestalındakı Leyli və Məcnun obrazlarının təsvirləri dahi şairin lirikasının daşlaşmış rəmzləridir. Nobel mükafatı laureatı Robindranat Taqor heykəlinin yaxasındakı naxışlar böyük sənətkarın fikir və düşüncə zənginliyinin tişə ilə yaradılmış əks-sədasıdır. Rəşid Behbudovun heykəli – əbədi çağlayan və oxuyan daş abidədir.

Akademik Zərifə xanım Əliyevanın Ömər Eldarov tərəfindən yaradılmış abidəsi sözün həqiqi mənasında Azərbaycan milli heykəltəraşlıq sənətinin müasir səviyyəsinin yüksək göstəricisidir. Fikrimizcə, bu nadir sənət əsərinin "Elegiya" adlandırılması da təsadüfi olmayıb, həm də abidənin ruhundakı mehri, insanpərvərliyi, lirizmi mənalandırır. Akademik Zərifə xanım Əliyevanın abidəsini lirizm etibarilə bu sahədə Azərbaycan poeziyasının şah əsərlərini yaratmış Məhəmməd Füzulinin lirikası ilə müqayisə etmək olar. Zərifə xanım Əliyevanın abidəsi Azərbaycan heykəltəraşlıq sənətinin tuncdan, qranitdən yoğrulmuş incə ruhlu poeziyasıdır. Nəhayət, Zərifə xanım Əliyevanın heykəli Ömər Eldarovun sərt realizmi daxilindəki romantik üslubi çalarların möhtəşəm təqdimatıdır.

Ömər Eldarovun yaratdığı akademik Zərifə xanım Əliyevanın heykəli Azərbaycan heykəltəraşlıq sənətinin şedevridir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev Ömər Eldarovun dahiyanə şəkildə canlandırdığı Akademik Zərifə xanım Əliyevanın qranit heykəlinə 1997-ci ildə Bakı İncəsənət Muzeyində keçirilən təqdimat mərasimində aşağıdakı kimi yüksək qiymət vermişdir: "Görürsünüz, bu adi əsər deyil. Bu əsərdə məni valeh edən, – bu sözü tam həqiqətlə deyirəm, – sevindirən və məndə böyük hissiyyatlar doğuran odur ki, bu əsərdə böyük fəlsəfə, məna vardır. Ən birincisi odur ki, Zərifə xanımın daxili mənəviyyatının, onun simasını, daxili və xarici simasını Ömər Eldarov əks etdirə bilibdir. Eyni zamanda, o, gözəl bir heykəltəraş kimi heykəltəraşlıq məktəbinin – nəinki Azərbaycan heykəltəraşlıq məktəbinin, dünya heykəltəraşlıq məktəbinin elementlərini, yaxud onların müəyyən cəhətlərini bu əsərdə həyata keçirə bilibdir" [5].

Lirizm baxımından Ömər Eldarovun Səttar Bəhlulzadə heykəli də son dərəcədə əhəmiyyətli əsərdir. Gözəllik heyranı olan, təbiət gözəlliklərinin əfsanəsini, nağıllarını yaradan Səttar Bəhlulzadə mövzusuna müraciət etməsində Ömər Eldarovun özünün də şairanə heykəltəraş baxışlarının bu mövzuya uyğun gəlməsi, harmoniya təşkil etməsi faktoru əsas rol oynamışdır. Səttar Bəhlulzadə abidəsindəki şairanəlik-romantika Ömər Eldarovun sərt realizminin daxilindəki lirik-romantik meyllərin canlı ifadəsidir. Səttar Bəhlulzadənin əlində boş çərçivələrin təsvir olunması ilk baxışda rəssamın çəkilməmiş əsərləri və ya davam edən sənəti mənasını daşıyır. Lakin sənətşünaslar Ömər Eldarovun kəşfi kimi qiymətləndirdikləri Səttar Bəhlulzadə abidəsindəki çərçivə detalını həm də mövzunu tamamlayan obraz kimi də mənalandırırlar: "Ömər Eldarov öz dostu, görkəmli rəssam Səttar Bəhlulzadənin portretinin yaradılmasına fəlsəfi-romantik yanaşmışdır. …Rəssam iki çərçivəyə söykənərək sevdiyi mənzərəni seyr edir və bu cəhət əsərdə fəal rol oynayır. Əks təqdirdə heykəlin mənası məhdudlaşardı. Çərçivələr burada məkan və estetik vəzifədən başqa, həm də obraz vəzifəsini daşıyır. Bu çərçivələr elə yerləşdirilmişdir ki, tamaşaçı baxış nöqtəsini dəyişməli olsa və abidənin ətrafında dolansa belə, həmişə çərçivədə Əmircanı və Bülbülə gölünü yeni rakurslarda görəcəkdir.

Müəllifin bu gözəl tapıntısı bizi Səttarın rəsm aləminə aparır, doğma Abşeronun mənzərələrinə həsr edilmiş son sərgisinin iştirakçısı edir. Ömər Eldarov rəssamın canlı sərgisini göstərməklə bərabər, həm də bizə yeni, yaradıcı məkan reallığını nümayiş etdirir" [4, s.22].

Sərt realizm üslubu ilə romantik çalarları birləşdirən Ömər Eldarovun yaradıcılığında dünya şöhrətli böyük bəstəkar və müğənni Müslim Maqomayevin heykəli də xüsusi yer tutur. Əvvəla, Bakı şəhərində, Dənizkənarı parkda, Xəzərin sahilində 2022-ci ildə ucaldılmış Müslim Maqomayevin heykəli Azərbaycan monumental heykəltəraşlığının qiymətli nümunələrindən biridir. Bu mənalı və əzəmətli heykəl dünya şöhrətli Azərbaycan müğənnisi və bəstəkarı Müslim Maqomayevin böyük sənəti ilə xalqına və ölkəsinə sevgisinin möhtəşəm ifadəsini mənalı bir şəkildə əks etdirir.

Müslim Maqomayevin heykəlinin həm də onun ölməz mahnılarının səsləndirilməsi imkanı ilə birlikdə təqdim olunması sanki böyük sənətkarın canlı obrazının yaradılması təəssüratı yaradır. Azərbaycanın ən gözəl guşələrindən olan Bakı Bulvarında, Mavi Xəzərin geniş üfüqlərinin fonunda ucaldılmış Müslim Maqomayev heykəli ölməz müğənninin bənzərsiz ifası ilə əbədiyyət qazandığını nümayiş etdirir.

Görkəmli şərqşünas alim Aida İmanquliyevanın memorial heykəlində də lirizm və düşüncə vəhdətdə ifadə olunmuşdur. Lirizm obrazın düşüncəsində, düşüncə isə onun elm adamı kimi təqdimatında özünü göstərir. Bu yolla Ömər Eldarov tişə ilə obrazın təbii obrazı ilə yanaşı, özünəməxsus xarakterini də yaratmağı bacarmışdır.

Beləliklə, lirik-romantik motivlər və nümunələr Ömər Eldarovun akademik üslubunu, istinad etdiyi sərt realizm metodunu fərqli çalarlarla zənginləşdirir, onun fəlsəfi məzmunlu heykəllərinə həyat nəfəsi gətirməyə xidmət edir. Sərt realizm üslubunda yaratdığı heykəllərdə heykəltəraş-rəssam kimi çıxış edən Ömər Eldarov lirik-romantik üslubda canlandırdığı obrazlarda və lövhələrdə şair-heykəltəraş olaraq özünü büruzə verir. Bütövlükdə isə Ömər Eldarovun heykəlləri sərt realizmin aparıcılığı ilə lirik-romantik üslubun üzvi sintezindən yoğrulmuş bənzərsiz, orijinal sənət nümunələridir. Azərbaycanın xalq yazıçısı Anar da Ömər Eldarovun "heykəl sənətinin şairi" olmasını onu başqa görkəmli heykəltəraşlardan fərqləndirən ən səciyyəvi cəhətlərdən biri hesab etmişdir: "Ədəbi janrlarla tutuşduraraq, mən Fuad Əbdürrəhmanov və Cəlal Qaryağdı kimi görkəmli heykəltəraşlarımızı bu sənətin nasirləri, romançıları kimi görürəm… Ömər Eldarov isə mənim fikrimcə, heykəl sənətinin şairidir. Sənətkarın xislətində olan bu şairanəlik mövzularından asılı olmayaraq, ustanın bütün əsərlərində aydın görünür" [1].

Deməli, Ömər Eldarovun heykəltəraşlıq sənətindəki özünəməxsus yeri onun sərt realist üslubda yaradılmış düşünən heykəllərinin şeiriyyəti, romantikası ilə də müəyyən olunur. Şeiriyyət, romantika Ömər Eldarovun sərt realizminin mühüm dəyişməz üslubi çalarıdır.

***

Xalq rəssamı, akademik Ömər Eldarovun Azərbaycan heykəltəraşlıq sənətinin inkişafı sahəsindəki xidmətləri dövlət səviyyəsində yüksək qiymətləndirilmişdir. O, 1959-cu ildə, 32 yaşında ikən heykəltəraşlıqda nümayiş etdirdiyi xüsusi istedadına görə "Şərəf nişanı" ordeni ilə təltif olunmuşdur. Az sonra, 1963-cü ildə Məhəmməd Füzuli abidəsinə görə Ömər Eldarov Tokay Məmmədovla birlikdə SSRİ Rəssamlıq Akademiyasının gümüş medalına və II dərəcəli diplomuna layiq görülmüşdür.

Ömər Eldarov 1963-cü ildə Azərbaycan SSR Əməkdar İncəsənət xadimi fəxri adını almışdır.

Tacikistanın paytaxtı Düşənbə şəhərində Sədrəddin Ayniyə ucaltdığı heykələ görə 1980-ci ildə SSRİ Dövlət mükafatı laureatı adına layiq görülmüş Ömər Eldarov 1982-ci ildə Azərbaycan SSR Dövlət Mükafatını da qazanmışdır.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Sərəncamı ilə Ömər Eldarov 1982-ci ildə Azərbaycan Xalq rəssamı fəxri adına layiq görülmüşdür. O, 1986-cı ildə "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif edilmişdir. Həmçinin 1997-ci ildə müstəqil Azərbaycan Respublikasının "İstiqlal" ordeni ilə təltif edilməsi onun ölkəmizdə milli mədəniyyətin inkişafı sahəsindəki xidmətlərinə verilmiş yüksək qiymətin ifadəsidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də xalq rəssamı Ömər Eldarovun sənətinə və xidmətlərinə yüksək qiymət vermişdir. Prezident İlham Əliyevin Sərəncamları ilə

Ömər Eldarov "Şərəf" (2012), "Heydər Əliyev" (2017), "I Dərəcəli Əmək" (2022) ordenləri, "Heydər Əliyevin 100 illiyi" medalı (2024) ilə təltif olunmuşdur. Ömər Eldarov ölkəmizin ən yüksək mükafatı olan Heydər Əliyev mükafatının (2009) da laureatıdır. Görkəmli heykəltəraş 2024-cü ildən Azərbaycan Respublikası Prezidentinin Fərdi Təqaüdünü alır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görkəmli heykəltəraşın ölkəmizdə milli mədəniyyətin inkişafında göstərdiyi böyük xidmətləri xalqımızın milli sərvəti kimi dəyərləndirmişdir: "Ömər Eldarovun yaratdığı əsərlər xalqımızın maddi-mədəniyyət nümunəsinə çevrilmişdir. Azərbaycan xalqının Ulu Öndəri Heydər Əliyev Ömər Eldarovun sənətini hər zaman yüksək qiymətləndirmişdir. Onun əsərləri yüksək mədəniyyət nümunələridir. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və görkəmli oftalmoloq alim akademik Zərifə Əliyevanın, həmçinin Azərbaycan mədəniyyətinin məşhur simalarının – Məhəmməd Füzulinin, Natəvanın, Hüseyn Cavidin, Üzeyir Hacıbəylinin, Niyazinin və digərlərinin abidələrinin müəllifi olan Ömər Eldarov ölkəmizin hüdudlarından uzaqlarda da yaxşı tanınır. Onun yaratdığı heykəllərin xarici ölkələrdə də ucaldılması böyük məmnunluq doğurur" [8].

Prezident İlham Əliyev Xalq rəssamı Ömər Eldarovun yaratdığı görkəmli dirijor Niyazinin heykəlini "möhtəşəm, çox gözəl və əzəmətli, eyni zamanda, əraziyə uyğun" [2] qiymətli sənət abidəsi adlandırmışdır.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva da xalq rəssamı Ömər Eldarovu anadan olmasının 95 illiyi münasibətilə təbrik etmiş, onun ümumxalq ehtiramını qazanmış görkəmli sənətkar kimi xidmətlərinin daim uca tutulduğunu nəzərə çatdırmışdır. Təbrikdə deyilir: "Sizi 95 illik yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm! Sizə möhkəm cansağlığı və uzun ömür arzulayıram! Öz yaradıcılığınızla milli təsviri incəsənətin gözəl ənənələrini zənginləşdirdiyinizə görə çox sağ olun! Siz Azərbaycanın yüksək mükafatlarına layiq görülübsünüz. Lakin düşünürəm ki, ən böyük mükafatınız xalqımızın Sizə olan böyük sevgi və hörmətidir. Uca Allah Sizi və doğmalarınızı qorusun!" [3]

Azərbaycan Milli Elmlər Akademiyasında da xalq rəssamı, akademik Ömər Eldarovun xidmətləri daim diqqət mərkəzində olmuşdur. Görkəmli heykəltəraş 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir. Akademik Ömər Eldarov 2014-cü ildə Akademiyanın Üzeyir Hacıbəyli adlı mükafatına layiq görülmüşdür. Ömər Eldarovun anadan olmasının 90 illiyi münasibətilə Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətində, görkəmli sənətkarın 95 illiyi ilə əlaqədar AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda elmi sessiya keçirilmişdir. Akademik Ömər Eldarova 2022-ci ildə AMEA-nın Fəxri Fərmanı verilmişdir. Akademiyanın Mərkəzi Elmi Kitabxanasının hazırladığı akademik Ömər Eldarovun həyatı və yaradıcılığını əks etdirən biblioqrafik göstərici 2023-cü ildə "Elm" nəşriyyatında nəfis tərtibatla kitab halında çap olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyasında 27 mart 2024-cü il tarixində keçirilmiş "Elm Günü" tədbiri Xalq rəssamı, akademik Ömər Eldarova həsr edilmişdir. Bu münasibətlə Ömər Eldarovun heykəltəraşlıq əsərlərinin sərgisi təşkil olunmuş, eyni zamanda, ustad heykəltəraşın yaradıcılıq yoluna həsr edilmiş film nümayiş etdirilmişdir. Vurğulayım ki, bu tədbirdə Xalq rəssamı Ömər Eldarovun həyatı və sənəti haqqında elmi məruzə ilə çıxış etmişəm.

Ölkəmizin görkəmli elm, sənət və ədəbiyyat xadimləri Ömər Eldarovun xidmətlərini yüksək qiymətləndirmişlər. Xalq yazıçısı Anar Ömər Eldarovu "heykəl sənətinin şairi", akademik Rafael Hüseynov "imzası Azərbaycanın ən mötəbər imzalarından birinə çevrilən böyük Azərbaycan heykəltəraşı", AMEA-nın müxbir üzvləri Rasim Əfəndi "yaxşı sənətkar – yaxşı insan" adlandırmış, Səlahəddin Xəlilov ustad heykəltəraşın "dərin fəlsəfəsi təfəkkürə malik, …öz düşüncələrini fəlsəfi dillə gözəl ifadə edən sənətkar", Əməkdar incəsənət xadimi Ziyadxan Əliyev "Milli heykəltəraşlığın lideri" səviyyəsində dəyərləndirmişlər. Günel İmranın yazdığı "Ömər" adlı romanda Ömər Eldarovun həyatı və yaradıcılığı bədii surətdə canlandırılmış, us-

tad heykəltəraşın obrazı yaradılmışdır [7, s.78]. Tanınmış sənətşünas alim Gülrəna Qacarın "Ömər Eldarov. Həyat və yaradıcılıq" monoqrafiyasında görkəmli tişə ustadının heykəltəraşlıq sənətinin inkişafındakı xidmətləri və fərdi yaradıcılıq üslubu elmi cəhətdən mükəmməl şəkildə təqdim olunmuşdur. Gülrəna Qacarın aşağıdakı fikirlərində Ömər Eldarovun heykəltəraşlıq sahəsindəki xidmətləri ilə yanaşı, həm də onun özünün obrazının da səciyyəvi cizgiləri əks olunmuşdur: "Eldarov aləminin yeganə və daimi sakini arzuları ilə qanadlanan, peşmançılıq və ümidlərlə yaşayan insandır. Onun qəhrəmanlarının hər biri öz aləminə qərq olmuşdur, daxili aləmi ilə yaşayır, öz mikrokosmosundadır. Eldarovun fərdi üslubu, onun sənətə yanaşması – insanın özünün daxilinə baş vurmasıdır" [2, s.11].

Dövlət başçısı İlham Əliyevin 9 may 2024-cü il tarixli Sərəncamı ilə Xalq rəssamı, akademik Ömər Eldarova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilib. O, hazırda Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü kimi həyatı və yaradıcılığının ən şərəfli bir dövrünü yaşayır.

**Ədəbiyyat / *References***


1. Anar. Heykəlin şeiriyyəti. "525-ci qəzet", 16 dekabr 2017-ci il
2. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin görkəmli dirijor, maestro Niyazinin Bakıda abidəsinin açılış mərasimində çıxışı. Bax: "Azərbaycan" qəzeti, 3 fevral 2017-ci il
3. Birinci vitse-prezident Mehriban Əliyeva Xalq rəssamı Ömər Eldarovun yubileyi ilə əlaqədar paylaşım edib. Bax: "Azərbaycan" qəzeti, 22 dekabr 2022-ci il
4. Gülrəna Qacar. Ömər Eldarov. Həyat və yaradıcılıq. – Bakı, "Şərq-Qərb", 2013.
5. Mərmərdə əbədiləşdirilmiş gözəl insan obrazı. "Xalq qəzeti", 22 aprel, 1997-ci il
6. Ömər Eldarov. Tahir Salahov Azərbaycanın ən məşhur və titulu rəssamı idi. "Xalq qəzeti", 24 iyun 2021-ci il
7. Ömər Həsən oğlu Eldarov. Biblioqrafik göstərici (tərtib edəni Nərgiz Novruzova, ön sözün müəllif İsa Həbibbəyli). – Bakı, "Elm", 2023.
8. Prezident İlham Əliyev Xalq rəssamı Ömər Eldarova "Heydər Əliyev" ordeni təqdim edib. "Azərbaycan" qəzeti, 21 dekabr 2017-ci il


## Азербайджанская школа размышляющей скульптуры и лиризм в скульптуре


**Иса Габиббейли**
Президент НАНА, академик
E-mail: isa.habibbeyli@science.az



В статье проводится системный анализ становления школы размышляющей скульптуры в изобразительном искусстве Азербайджана и проявления лиризма в данном направлении в философско-эстетическом контексте. Основой исследования выступает многогранное творчество Народного художника, академика Омара Эльдарова, на примере которого демонстрируется модель художественного синтеза: идеи и формы, реальности и поэтики, символического образа и философского содержания.
В его монументальных, мемориальных и портретных композициях раскрываются фундаментальные категории – историзм, национальная идентичность, взаимосвязь человека и времени – через выразительные формы. Мимика, поза, направление взгляда и внутренняя композиционная динамика используются как инструменты визуализации размышлений и эмоций. Это свидетельствует не только о техническом мастерстве, но и о способности формировать глубокое философско-эстетическое высказывание.

Синтез сурового реализма с романтической лирикой в творчестве Эльдарова формирует новый художественный код, где изобразительная форма становится носителем смысловой и ментальной глубины. Человеческий образ предстает как в историко-культурной, так и в индивидуально-экзистенциальной проекции, что и определяет концепцию размышляющей скульптуры.
В статье также рассматриваются заслуги Омара Эльдарова в создании академической школы скульптуры, его педагогическая деятельность, общественное влияние и международное признание. Его творчество оценивается не только как художественное явление, но и как значимое культурно-философское и теоретическое событие.
**Ключевые слова:** Омар Эльдаров, размышляющая скульптура, лиризм, монументальное искусство, суровый реализм, визуальное мышление, академическая школа искусства